# ABŞERON DENDROAQROSENOZLARINDA XEYİRLİ ENTOMOFAUNAYA PESTİSİD TƏSİRLƏRİNİN TƏNZİMLƏNMƏSİ

**Şaməddin Qəhrəmanov[1], Hüseyn Məmmədov[2]**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutu, qhrmanov62@mail.ru*

Tədqiqatın məqsədi Abşeron yarımadasında becərilən çoxillik dendroloji bitkilərin mühafizəsində müasir innovativ yenilikərdən və ekoloji təhlükəsiz bitki mühafizə vasitələrindən, o cümlədən xeyirli entomofaunanın səmərəli fəaliyyəti ilə zərərli orqanizmlərin artıb-çoxalmasını nəzarətdə saxlamaqla bitkilərin zədələnməsinin qarşısını alaraq, kimyəvi pestisidlərin tətbiqini məhdudlaşdırmaqla ekoloji tarazlığı bərpa etməkdən ibarətdir.

Abşeron yarımadasında dendroloji bitkilərin zərərli orqanizmlərdən mühafizəsinin başlıca perspektiv inkişaf istiqamətlərindən olan xeyirli entomofaunaya pestisid təsirlərinin azaldılması imkanlarının müəyyənləşdirilməsi mühüm ekoloji və iqtisadi əhəmiyyətə malikdir, bunlar aşağıdakılardan ibarətdir:

- dərmanlama vaxtının və sayının tənzimlənməsi;
- pestisidlərin tətbiq formalarının müəyyən edilməsi;
- selektiv insektoakarisidlərin tətbiq reqlamentinin hazırlanması;
- ərazidə bitkilərin seçmə yolu ilə dərmanlanması;
- dərman preparatlarının növbələşdirilməsi;
- bitkilərin bioloji mühafizə imkanlarının araşdırılması.

Abşeron dendroflorasında zərərli orqanizmlərə qarşı mübarizədə kimyəvi dərmanlanmaların sayını və normasını azaltmaq məqsədilə senozlarda zərərli orqanizmlərin miqdarının məhdudlaşdırılmasında mühüm rol oynayan təbii entomofaunanın (xeyirli entomofaqlar, antoqonistər və xəstəlik törədiciləri) növ tərkibinin və səmərəli fəaliyyətinin qiymətləndirilməsi mühüm əhəmiyyət daşıyır. Yırtıcı və tüfeyli həşəratların, həmçinin xəstəliktörədicilərin fəaliyyəti nəticəsində zərərli orqanizmlərin artıb-çoxalmasının qarşısı alınır, onlar qismən və ya tamamilə məhv edilir, məhsul itkisi azalır. Ona görə də dendroaqrosenozlarda bioloji mübarizənin səmərəliyini artırmaq üçün zərərli orqanizmlərlə yanaşı, onların təbii düşmənlərinin də həyat tərzinin, təbii artıb-çoxalmalarının və eyni zamanda zərərlilərin azalmasında onların fəaliyyətlərinin düzgün qiymətləndirilməsi olduqca vacib məsələlərdəndir. Zərərli orqanizmlərin və təbii entomofaqların düzgün uçotu əsasında kimyəvi dərmanlanmalara ehtiyac öyrənilir, tələbat olmadığı halda zəhərli kimyəvi maddələrin istifadəsi maksimum azaldılaraq xeyirli entomofaunanın inkişafı və fəaliyyəti üçün əlverişli şərait yaradılır.

Abşeron dendroaqrosenozlarında kimyəvi mübarizə tədbirlərini məhdudlaşdırmaq və dərmanlamaların sayını azaltmaq ücün senoz daima entomofaqlarla zənginləşdirilməlidir. Bunun üçün entomofaqları süni çoxaldaraq zərərverici yayılmış sahələrə buraxdıqda, kimyəvi dərmanlardan istifadə mümkün qədər azalır, yaradılan əlverişli mühitdə entomofaqlar bir qədər sürətlə çoxalaraq zərərvericilərin miqdarını məhdudlaşdırırlar. Həmçinin, müasir bitki mühafizəsində aqrosenozlarda dendroloji bitkilərə ziyan vuran həşəratlara qarşı bir çox hallarda xəstəlik törədicilərindən istifadə edilir.

İntensiv texnologiyalara əsaslanan müasir park və bağlarda kimyəvi preparatlarla dərmanlanmaları azaldaraq bir sıra mikrobioloji preparatlardan istifadə olunması zərərli orqanizmlərə qarşı aparılan mübarizə tədbirlərinin səmərəliyini yüksəldir, yarımadada bununla əlaqədar yarana biləcək problemlərin həllini asanlaşdırır. Eyni zamanada mikrobiloji preparatlarla insektisidlərin qarışığından istifadə edərək zərərvericilərin məhv edilməsi bir sıra üstünlüklərə malikdir, belə ki, qarışıqdakı kimyəvi insektisid zərərvericinin immunitetini zəiflədir, zəifləmiş orqanizm xəstəlik törədicisinə qarşı daha çox həssas olduğundan xəstələnərək ölür.

Aqrosenozlarda xeyirli entomofaunanın səmərəli fəaliyyətini bir sıra aqrotexniki tədbirlər vasitəsilə artıraraq, onların artıb-çoxalması üçün əlverişli şəraitin yaradılması mümkündür. Yaradılmış əlverişli şəraitdə entomofaqlar sürətlə artıb-çoxalaraq, ekoloji mühitdə zərərverici həşəratların miqdarı kəskin azalır, ziyanı həddən aşağı düşür və ya tamamilə məhv olaraq kimyəvi dərmanlamalara ehtiyac aradan qalxır.

Beləliklə, denroaqrobiosenozlarda torpağın düzgün becərilməsi, dendroloji bitkilərin əlverişli əkin vaxtının müəyyən olunması, müxtəlif bitkilərdən ibarət qarışıq birillik əkinlər, yarım mühafizə zolaqların yaradılması, entomofaqlar üçün əlavə yem ehtiyyatının olması, qida və cinsi attraktantlarından istifadə, torpaqda antoqonistlərin fəaliyyətinin aktivləşməsi və eyni zamanda davamlı sortlardan istifadə entomofaunanın səmərəli fəaliyyətini gücləndirərək zərərli orqanizmlər daima nəzarətdə saxlanılır, kimyəvi dərmanlamalara ehtiyac aradan qalxır, nəhayət biomüxtəliflik qorunaraq ekoloji tarazlıq təmin edilir.